# "ÖZÜNÜ YAZAN" ŞAİRİN ÜRƏK PIÇILTILARI



*Rafiq SALMANOV,*
*Əməkdar mədəniyyət işçisi, Beynəlxalq "UNİCEF" və "Qızıl qələm" mükafatları laureatı*

**Bu qəbildən olan səmimi və kövrək şeirləri oxuyanda istər-istəməz adamın ürəyindən bir əminlik hissi keçir. İnanırsan ki, ədəbiyyatımızı, şeirimizi, sözümüzü yaşada biləcək gənc və istedadlı qələm sahiblərimiz vardır. Tənqidçilərin "Özünü yazan" şairin ürək pıçıltıları" adlandırdığı bu sətirlər sübut edir ki, ədəbiyyatımızı üç, beş və ya on şeiri ilə fəxr edərək döşünə döyənlər, hüdüdsuz iddialarla yaşayanlar deyil, məhz bu qəbildən olan səmimi, təvazökar və məsuliyyətli düşüncə sahibləri yaşadacaqlar. Bu barədə bir az sonra.**

Yaxşı yadımdadır. Xalq şairi Qabilin "Ümid sənədir ancaq, Azərbaycan əsgəri!" şeiri mətbuatda veriləndən sonra qısa müddətdə dillər əzbəri olmuşdu. Hamı şairin haqlı olduğunu söyləyirdi. Hətta bu şeirin böyüklü-kiçikli hər kəsin əzbərləməsinin vacibliyini söyləyənlər də az deyildi. Bu il aprelin əvvəllərində ermənilərin təmas xəttində törətdiyi təxribata layiqincə cavab verən və son 20 ildə düşmənin burnunu ilk dəfə əzən Azərbaycan Ordusunun zəfərli əməliyyatlarının nəticəsini görən hər kəs məhz Qabilin həmin şeirini yada salırdı: "Ümid sənədir ancaq"...

Hamımızın sidq-ürəklə sevdiyimiz həmin şeirdən çox illər sonra bu məzmunlu daha bir şeir oxuduq və ədəbiyyat həvəskarları, sözün həqiqi mənasında məmnunluq hissləri yaşadılar. 2010-cu ilin yazında oxuduğumuz həmin şeirin müəllifi ürəyi Vətən məhəbbətiylə alışıb-yanan qadın şairlərimizdən biri - Ülkər Hüseynlidir. Yaxşı ədəbi nümunə ilə rastlaşanda həmişə zəng edən dostlarımdan biri o şeirin ilk bəndini mənə telefonda oxumuşdu:

**Neçə ildir sinəmiz**
**güllədən dəlik-deşik,**
**Böyüdülər körpələr**
**görmədən qundaq beşik,**
**Viran qaldı yurdumuz,**
**talan oldu ev-eşik.**
**Körpələrin gözündə**
**mən gülüş istəyirəm,**
**Əbədi sülh naminə**
**son döyüş istəyirəm!**

Fikrimcə, sətirlər təkcə xalqın on illərdən bəri həsrətində olduğu günün arzulanması deyil. Bu, həm də Azərbaycan dövlətinin yeritdiyi siyasətin əks-sədasıdır. Ədəbiyyat isə xalqın , millətin problemlərinin qabardılması zamanı daha güclü olur.

Dahilərdən hansısa deyib ki, hər qəlbin




öz dünyası var. Bu, bir həqiqətdir. Amma o da həqiqətdir ki, hər dünyanın da onu duya bilən qəlbə ehtiyacı var. Bu, yarı ədəbi, yarı fəlsəfi tezisin təsdiqini şairə Ülkər Hüseynlinin kitablarında asanlıqla görmək olur. Onun şeirlərinin hər birini oxuyanda hiss edirsən ki, bu sətirlər şeir yazmaq, kitab ərsəyə gətirmək üçün qələmə alınmayıb. Bu sətirlər dünyamızın, yəni böyük aləmin bir fərdin daxili aləmindəki əksini göstərmək üçün yazılıb. Bu sətirlərdəki işıq Vətən üçün yanan ürəyin qığılcımlarıdır, bənd-bənd, şeir-şeir, kitab- -kitab artaraq alova çevrilir. Şairənin bu günlərdə "ŞUŞA" nəşriyyatında işıq üzü görmüş "İtirdiyim ünvana məktub" adlı ikinci kitabında (redaktoru Vasif Quliyevdir) həmin od-alov daha aydın görünür. Ön sözün müəllifi, Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru Qafar Əsgərzadənin fikrincə, Ülkər Hüseynli bu kitabdakı müxtəlif mövzulu şeirləri ilə oxucunu təkcə tanış etmir, həm də təəccübləndirməyi bacarır. Kitabı vərəqlədikcə, şeirləri oxuduqca, ön söz müəllifinin qənaəti ilə razılaşırsan.

Bu barədə danışarkən daha vacib olan məqamlardan birinə də toxunmaq zərurəti hiss edirik. Belə ki, Ülkər xanım təxminən 10 il qabaq işıq üzü görən "Mən şeir yazmıram ki ..." kitabında bəyan edirdi ki, mən şeir yazmıram, sadəcə, ürəyimi narahat edən hissləri, insanların dərd-sərini, dünyanın problemlərini, ən başlıcası isə:



**Mən şeir yazmıram ki,**
**Mən "özümü" yazıram.**
**Ürəyimi sətir-sətir düzürəm**
**Misraların arasına.**

Bəli, o, ürəyini sətir-sətir misraların arasına düzərək mükəmməl, həm də sevilən ədəbi nümunələr yaradır. "Üzümdə təbəssüm dolandı daim, İçdən hönkür-hönkür hey ağlasam da" - deyən müəllif, əslində, bu fikirlərlə həqiqi şairlərimizin min illərdən bəri yaşadığı talenin bir parçası olduğunu dilə gətirir.

Gənc şairin zamanı görmək barədə söylədiyi obrazlı ifadəyə gəlincə isə, qeyd edək ki, həmin fikirlə oxucunu inandıra bilib. Doğrudan da, zamanı necə, harada görmək olar? Ülkər Hüseynli həmin ünvanı belə qələmə alır:

**Zamanı harada görmək olar?**
**Böyüdükcə ömür möhlətinin,**
**Kiçikliyini anlayanda.**
**Edib-etmədiklərinə görə**
**Özünü danlayanda.**
**Tanışların azalan sıralarında,**
**Qəlbinin günbəgün artan yaralarında...**

İndi isə haqqında söz açdığımız kitabın adı ilə bağlı məqama qayıdaq. Zamanı görə bilən şairənin itirdiyi ünvan uşaqlıq illəridir. "Çoxdan ayrıldığım uşaqlığa məktub yazmışam" - sətiri ilə başlanan şeirdə deyilir:

**Darıxmışam,**
**isti-soyuq bilmədən**
**Həyət-bacada qaçdığımız**
**günlərimiz üçün.**
**Darıxmışam, məktəb**
**dəhlizlərində qalan izlərimiz,**
**Divarlara hopmuş şaqraq**
**gülüşlərimiz üçün.**

Oxuyursan, düşünürsən və adama elə gəlir ki, bu sətirlərin müəllifindən incə, kövrək kiminsə olduğunu təsəvvür etmək çətindir. Amma elə deyil. Onun qətiyyətini, iradəsini, mətinliyini göstərən "Son döyüş istəyirəm!" şeirinin finalına baxmaq kifayətdir ki, müasir Azərbaycan ədəbiyyatında daha bir aslan ürəkli xanım şairin olduğuna inanasan:

**Nə qədər eşitmişik**
**yalan vədi, sözləri,**
**Həqiqətə açılmır**
**dünyanın kor gözləri.**
**Səbirdən keçdi daha,**
**tükətdilər bizləri,**
**Türkün əzəl yurduna**
**tez dönüş istəyirəm,**
**Qələbə şərəfinə**
**son döyüş istəyirəm.**

**Fikrimizcə, artıq şərhə ehtiyac qalmadı. Ülkər Hüseynli adlı gənc qələm sahibinin hər şeirini, hər sətirini oxuyanda adam istər-istəməz həmin şeirin əhval-ruhiyyəsinə köklənir. Haqqında söz açdığımız sonuncu şeirin isə bütün gənclərimizin yeni əhval-ruhiyyəyə köklənməsində özünəməxsus rol oynayacağı indidən məlumdur. Biz isə indidən deyə bilərik ki, o, ədəbi mühitdə öz yerini tapa bildiyinə görə ədəbiyyatımızın inkişafına özünəməxsus töhfələr verə biləcək. Gənc soydaşımıza uğurlar arzulayırıq.**

Ədalət.- 2016.- 19-20 iyul.- S. 4.